# SÖZÜN YURD AĞRISI

## (Şair Ədalət İzzətoğlunun yaradıcılığı haqqında qeydlər)



*Balayar Sadiq*

**Söz bir qapıdır. Bu qapıdan keçmək üçün qapını döymək lazım deyil. Döyülməklə açılmır bu qapı; duyumla, duyğuyla açılır. Duyğusu, duyumu olmayan bu qapıda işi yoxdur. Dünya yaranandan bəri sözlər qapıların, qapılar sözlərin alın yazısıdır. İnsan ömrü də söz kimi bir qapıdır. Zaman-zaman, fəsil-fəsil açılır; gah sevincin, gah kədərin, dərdin üzünə...**

Bu duyğu və düşüncələr içində istedadlı şair Ədalət İzzətoğlunun poetik dünyasının qapısını açıram.

Ömrünü sözə bağlayan, onunla təsəlli tapan yurd həsrətli şairdir Ədalət İzzətoğlu. Cəbrayılda dünyaya gəlib. Ömrünün mənalı günlərini Cəbrayılda yaşayıb. İndi Cəbrayıl həsrətiylə Sumqayitda yasayir və yazıb-yaradır.

### *İnsan dühasının ən böyük tapıntısı*

və insan həyatının ən dəyərli xəzinəsi sözdür. Sözün təbiətinə xas olan keyfiyyətlər çeşid-çeşiddir.

Bədii sözün mahiyyəti daha təravətli və çoxmənalıdır. Bədii söz dərin ictimai mənası, əhatəli və güclü realizmi, estetik keyfiyyətləri ilə dolğun məzmun kəsb edir. Bu mənada bədii təfəkkürün, ədəbi yaradıcılığın yolu mürəkkəb mündəricəsi ilə seçilir. Yalnız əhəmiyyətli mövzunun qələmə alınması əsərin ədəbi uğuruna zəmanət verə bilməz. Əsl sənətin gücü dəyərli ideyanın, böyük fikrin obrazlı ehtivasında, təravətli təcəssümündədir. Ədalətin şeirlərinin lirik qəhrəmanı müşahidə qabiliyyəti ilə fərqlənir.

Onun fərdi poetik siması təkcə yazdığı şeirlərin üslub xüsusiyyətlərindən deyil, həm də hadisələrə yanaşmasında, onları seçməsində və dəyərləndirməsində, lirik "mən"in əhval-ruhiyyəsini təbii və səmimi poetik boyalarla canlandırmasındadır. Şairin lirik qəhrəmanı həssas müşahidə qabiliyyətilə həmin proseslərdə fəal iştirak edir. Onun poeziyasında yurd sevgisi, vətənsevərlik, el-oba məhəbbəti, milli özünüdərk və yaddaşa qayıdış duyğusu böyük önəm daşıyır. Şairin vətən həsrətli şeirlərində Qarabağ ağrısı, yurd həsrəti məxsusi bədii detallarla əks olunur. Ədalətin şeirlərinin lirik qəhrəmanı vətən, yurd həsrətiylə yaşayan insanların bədii obrazıdır. Düşmən tapdağında qalan Cəbrayılın həsrəti Ədalətin şeirlərində poetik səmimiyyətlə ehtiva olunur.

*Danışma, qardaşım, danışma hələ,*
*Biz yurdsuz qalmışıq Vətəndə belə.*
*Düşmüşük fitnəyə, düşmüşük fələ,*
*Yaza bilmədiyim sözüm ağlayır.*

*Boylanıb yollara baxdım, yoruldum,*
*Gözümün kökündən saralıb soldum.*
*Qocalıb axırda lap ahil oldum,*
*Səbrim ağlayır, dözüm ağlayır.*

*Yurdsuz zəhər olub suyum, çörəyim,*
*O müqəddəs yerdir mənim gərəyim.*
*Ədalətəm, burda qəlbim, ürəyim,*
*Oralarda qalan izim ağlayır.*

Bu misralarda vətən, yurd həsrətli bir şair ürəyinin poetik harayı eşidilir. Yurd-yuvasından uzaq düşmüş insanların könül ağrılarının bədii ümumiləşdirilməsi çox səmimi və təsirlidir.

Ədalətin yaradıcılığında həyat həqiqətlərinin bədii həqiqət müstəvisində uğurla inikasını görürük.

Şairin əksər şeirlərində milli-mənəvi dəyərlərin sevgi, məhəbbət duyğularının tərənnümü səmimi ovqat aşılayır. Vətənpərvərlik ruhu Ədalətin şeirlərinin alın yazısıdır. Şairin bir qisim şeirlərində yurd yanğısı ilə yanaşı qəhrəmanlıq, cəsurluq duyğuları bədii müstəvidə poetik ifadəsini tapır. Hər bir insanın şəxsi taleyi olduğu kimi, hər şeirin də öz taleyi var.

Bir də var şairin taleyi. Şairin taleyi onun şeirlərinin taleyidir. Bir neçə şeirindən bezi poetik detalları nümunə kimi təqdim etməyə dəyər:

*Dağların başını aldı buludlar,*
*Şəhidlər məzarı oldu o yurdlar.*

və yaxud:

*Çağırır yurdumun dağları bizi,*
*Kövrəlib torpağı, cığırı, izi…*

və ya:

*Xəyalımdan çıxmayır bircə an da,*
*Yaşayırdım əfsanəvi məkanda.*

və yaxud:

*Lənət olsun düşmənin şeir-felinə,*
*Qirov düşüb arzuların telinə.*
*Ədalət, dönərsən bir gün elinə,*
*Güvən əsgərinə, güvən orduna...*

Vətən, yurd həsrətli şairin qəlbində qələbəyə inam böyükdür və bu inamın işığı onun poetik, səmimi misralarına istilik, hənir qatır.

Ədalət İzzətoğlunun istifadə etdiyi bədii təsvir vasitələri ilə təsvir etdiyi surətin duyğu və düşüncələrini, daxili ovqatını və psixoloji məqamını şəraitə uyğun daha təsirli şəkildə üzə çıxardır. Ədalət şeirlərində vətəndaşlıq yanğısının bədii mənzərəsini təqdim edir və səmimiyyət dolu bu poetik nümunələr onu vətəndaş şair kimi səciyyələndirərək, həm də vətəndaşlıq qayəsinin daha dərin mətləblərdən soraq verdiyinə şahidlik edir.

### *Hər bir bədii kitab*

***müəllifin duyğu və düşüncələrinin ədəbi müstəvidə inikasıdır. Məlumdur ki, şair kitabdan-kitaba öz yaradıcılıq dünyasının sərhədlərini genişləndirməli və yeni poetik ovqatı ilə oxucu marağını qazanmalıdır. Poetik toplularn başqa bədii kitablardan fərqli cəhətləri də var. Ən başlıca və diqqətçəkən məziyyət odur ki, bircə şeirlə də müəllifin poetik gücünü, iqtidarını görmək mümkündür. Bəzən bir şeir bütöv bir yaradıcılığın, bir şair taleyinin poetık indeksinə çevrilir və bu uğur müəllifə sənətkar etiketi qazandırır.***

Tutduğu vəzifə mövqeyindən, qazandığı titullardan, fəxri adlardan asılı olmayaraq hər bir şair şeirindən, misrasından boylanır. Şeirin bədii səviyyəsini ifadə edən elementlər sırasında başlıca məharət müəllifin qələmə aldığı mövzuya yanaşmada öz baxış bucağını göstərə bilməsidir.

Digər ədəbi janrlar kimi şeirdə də bədii ümumiləşdirmə səriştəsi şairin yetkinliyinin, dolğun əsərlər yaratmaq bacarığının əyani təzahürüdür. Mahiyyət etibarı ilə ədəbiyyatda bütün mövzular işlənmişdir. Lakin istedadlı qələm sahibləri, "köhnə" mövzulara da öz poetik nəfəsi ilə yeni ruh verə bilir, məhz poetik ruhun canlılığı, təravəti şairin özünəməxsusluğunu şərtləndirən amillər sırasındadır.

"İçimizdə yurd adlı yaramız var" kitabına toplanmış poetik nümunələr yetkin şair düşüncəsinin sənət müstəvisində əyaniləşməsidir. Ədalətin şair kimi fərdi yaradıcılıq manerasını səciyyələndirən önəmli xüsusiyyət onun vətəndaşlıq qayəsinin səmimiyyəti və dolğunluğudur. Şairin müxtəlif mövzularda yazılan şeirlərini səmimiyyət, həyat hadisələrinə fəlsəfi baxış, xeyirxahlıq duyğularının təbliği, saf sevgi kimi amillər birləşdirir. Bütün bu məziyyətlər onun sözə məsuliyyətlə yanaşmasının



nəticəsi olmaqla bərabər, həm də sənətə həvəslə yiyələnməsinə zəmanət verir.

Şairin ədəbi uğurunu şərtləndirən cəhətlərdən biri də onun qələmə aldığı mövzuların mahiyyətinə dərindən vara bilməsi, gördüyü problemlərin səbəbini sənətkar kimi araşdırmasıdır. Milli-mənəvi dəyərlərimizə bağlılığı, milli özünüdərk mövzularına daha dərindən vaqif olması diqqətdən yayınmır. Onun şeirlərində yalnız milli ağrılarımız göstərilmir, həm də bu bəlaları doğuran səbəblər bədii sənət güzgüsündə işıqlandırılır. Ədalət İzzətoğlunun poetik nümunələrində Vətən, insan, təbiət və zamanla bağlı fikir və düşüncələr təqdim olunan mahiyyətin mühüm tərkib hissəsi kimi üzə çıxır.

### *Vətən sevgisi, yurd məhəbbəti*

**onun yaradıcılıq kredosunun əsasını təşkil edir. Özünəməxsus obrazlar yaratmaq bacarığı, sözü yerində və ustalıqla işlətmək məharəti, həmçinin sadə deyimlə zəngin poetik məna ifadə bilməsi onun sairlik xüsusiyyətini əyaniləşdirir. Kitabdakı şeirlərin önəmli məziyyətlərindən biri də Vətən həsrəti ilə yanaşı, insanın mənəvi dünyasının, hisslər, duyğular aləminin həssas və zərif ifadə olunmasıdır. Bu poetik nümunələrdə lirik qəhrəmanın yaşadığı yurd ağrısının dərinliyi ilə bərabər, eşqin ucalığını, qüdrətini daha parlaq və gözəl ifadə etmək üçün istifadə olunan bədii təsvir və ifadə vasitələrinin təravətli şairin poetik bacarığının ehtivasıdır.**

Şairin poetik əsərlərinin lirik qəhrəmanı öz müşahidə qabiliyyəti ilə diqqəti cəlb edir. Onun fərdi poetik siması, yalnız qələmə aldığı nümunələrin üslüb cəhətlərində deyil, həmçinin hadisələrə yanaşmasında, onları seçməsində və qiymətləndirməsində, lirik "eqo"nun əhval-ruhiyyəsini təravətli, həm də səmimi çalarlarla ehtiva etməsindədir.

O, dilimizin zəngin və rəngarəng təhkiyələrindən, bədii təsvir və ifadə vasitələrindən bacarıqla istifadə edərək, qələmə aldığı mövzuların bədii həllini, poetik ümumiləşdirməsini özünəməxsus ovqatda təqdim edə bilir. Ədalətin yaradıcılığında məxsusi bir məziyyət var ki, onu başqalarından fərqləndirə bilir. Bu cəhəti şərtləndirən amil geniş və dərin mənada sadəlikdir və bu sadəlikdə bədii zənginlik və müdriklik mövcuddur. Onun şeirlərinin məğzini təşkil edən dərin və poetik ictimai məna ugurlu yaradıcılıq səciyyəsi daşıyır.

### *Şairin lirikasında*

***həsrət və qəm motivlərinin yeknəsəkliyi, sentimental notlar, gərəksiz pafos heç vaxt duyulmur. Kitabdakı şeirlərində vətənin qəhrəman oğullarının, sadə insan ləyaqətinin tərənnümü, həmçinin xeyirxahlıq, nəciblik, əzəmət və gözəllik duyğularının bədii müstəvidə səmimi təbliği, bütövlükdə yaradıcılığına dərin ictimai-fəlsəfi mündəricə gətirir.***

Bu poetik nümunələri mövzusundan asılı olmayaraq daxili bir bədii məntiq, ümumi bir məna birləşdirir. Ədalət İzzətoğlunun şeirlərində insana inam və etibar motivi güclü olduğu üçün, bu məziyyət şeirlərinin bədii siqlətinə nikbin əhvali- ruhiyyə, işıq və hərarət qatır.

Ədalətin rəvan və təbii üslubu, şeirlərinin vəzn, bölgü, qafiyə və poetik strukturun digər elementlərindən məharətlə istifadə etmək bacarığı onun yaradıcılığını şərtləndirən keyfiyyət kimi önəmli səciyyə daşıyır. Poetik yükündən bədii mahiyyətindən asılı olmayaraq, şairin bütün şeirlərindən Vətən ağrısınn harayı gəlir, nəciblik, məhəbbət, halallıq qoxusu duyulur. Bu şeirlərdə insanın insanlar qarşısında, bəşəriyyət qarşısında insanlıq borcunun və ləyaqətinin vicdanla, ədalətlə, namusla icrası məsələsinə böyük diqqət verilir. Bu xüsusiyyətlər onun şeirlərinə ictimai dərinlik, geniş vüsət və məzmun bütövlüyü gətirir.

Məlumdur ki, lirik əsərlərdə yenilik ruhu o vaxt diqqət kəsb edir ki, orada həyati müşahidə bədii materialın, poetik obyektin yeni cizgilərinə, görünməmiş tərəflərinə nüfuz etmiş olur. Ədalət İzzətoğlunun şeirlərində ictimai, mənəvi, əxlaqi tamlıq və halallıq mövzusu geniş yer tutur və onun dünyagörüşünün, bədii-estetik idealının müəyyənləşməsində, formalaşmasında əhəmiyyətli rol oynayır. Bu poeziyanın ən səciyyəvi xüsusiyyətlərindən biri onun müasirliyidir, yəni şair müasir həyatımızın təzadlarını, onun insanlara səadət bəxş edən məqamlarını və eyni zamanda, insanları əzab məngənəsində sıxan anları poetik məzmunda ehtiva edərək, onu yeni-yeni məna çalarları ilə zənginləşdirir.

### *Onun şeirlərində*

**milli kolorit qüvvətli olduğu üçün böyük maraq doğurur. Bu cəhət şeirlərin mövzusunda, mütəmadi müraciət olunan qoşma janrının ahəng və ritmində, bədii təsvir vasitələrində nəzərə çarpır. O, insan mənəviyyatının qüdrət və gözəlliyini tərənnüm edəndə də, doğma yurdu vəsf edəndə də, elin adət-ənənələrindən yazanda da kolorit zənginliyi diqqəti cəlb edir.**

Şair bəzən bir bənddə lakonik poetik detallarla oxucu xəyalında orijinal lövhələr canlandıra bilir. Onun bir sıra şeirlərində mürəkkəb psixoloji vəziyyətlər, anlar və duyğular, hisslər aləmi çox zərif və dəqiq ifadəsini, bədii həllini tapmışdır. O, bədii dilin estetik gözəlliyinə, emosionallığına məsuliyyətlə yanaşaraq, məzmuna uyğun forma rəngarəngliyindən səriştəylə istifadə etməyi bacarır.

Ədalətin yaradıcılığında mənəvi-əxlaqi zənginliyin harmoniyası vardır. Bu mənada o, daim inkişaf edən həm forma və məzmun əlvanlığı, həm də poetika baxımından kamilləşən şairdir.

Bəllidir ki, bədii sənətin gücü böyük ideyanın, dəyərli fikrin obrazlı təcəssümündə, səmimi və təravətli ehtivasındadır. Bu keyfiyyətlər qələm sahibindən bədii sözün məna çalarlarını, dilin incəliklərini duymağı, poetik obrazlar sistemində əsərin forma və məzmun vəhdətini yaratmağı, sənət qarşısında daim məsuliyyət hissini qorumağı tələb edir. Bütün bu məziyyətlər yurd həsrətli şair Ədalət İzzətoğlunun yaradıcılığında öz əksini tapmışdır.

**"İçimizdə yurd adlı yaramız var" şeirlər kitabını şairin yaradıcılıq nailiyyəti kimi səciyyələndirmək olar. Söz sənətinin çətin və şərəfli yollarında şairə yeni uğurlar diləyirəm.**